# SÖZÜN NƏBİ MÜLKÜM NAXIŞI

Nəbi Mülkümovun (təxəllüsü Mülk) "Mənim könül dəftərim" adlı şeirlər kitabı elə adından göründüyü kimi özünün orijinallığı ilə fərqlənir. Onun şeirlərində məzmun gözəlliyi, forma rəngarəngliyi diqqəti cəlb edir. Şeirlər qəlbinin səsilə yazıldığından sadəliyi, yığcamlığı və təbiiliyi ilə seçilir.

Onun poeziyası enerjili, nurlu, məhəbbət və sevgi dolu poeziyadır.

Dağlarımızın möhtəşəmliyini, vüqarını, əzəmətini biz onun poeziyasında görürük. Onun şeirlərində cilvələnən dağlarımızın gözəlliyini görürük, hiss edirik və duyuruq.

Onun poeziyası dağdan axan parlaq və soyuq bulaqdır.

Belinski yazırdı: "Hər hansı poeziya həyatın ifadəsi olmalıdır, lakin poeziya həyatın ifadəsi olmaq üçün hər şeydən əvvəl poeziya olmalıdır".

Nəbi Mülk də məhz belə bir poeziya yaratmışdır. Oxuculara təqdim olunan bu 2-ci kitab haqqında yazmaq mənə də nəsib olmuşdur. Bu gün bizim gözəl şair kimi tanıdığımız Nəbi Mülkümov el-obasında tanınmış bir nəslin oğludur. O, ağa ağ, qaraya qara deməyi bacarır. O təkcə təbiəti təsvir etmir, təbiətin özünü, tablosunu yaradır.

Zümrüd meşələrin səfasını, səmada süzən qartalın qanadının uğultusunu, dağlardan axan şəlalənin fəryadını, dağların döşündən axan ayna gözlü bulağın zümzüməsini, şəfasını, incə belli gözəllərin vəfasını, xəfif-xəfif əsən mehin min cür ətrini, məsum qızılgüllərin gözəlliyini duyuruq onun poeziyasından. O həyatı canlandırmağa, həm də onu həqiqətdə olduğu kimi canlandırmağı bacarır və bunu Zaqatala şeirində aşağıdakı kimi vəsf etmişdir:

Qızılgüllər diyarıdır sənin adın,
Qonaq-qara ocağıdır sənin adın,
İsti ana qucağıdır sənin adın,
Təbiətin mayağısan, Zaqatala!
İnsanlığın dayağısan, Zaqatala!
Zümrüd kimi meşələrin səfalıdır,
Ayna gözlü bulaqların şəfalıdır,
İncə belli gözəllərin vəfalıdır,
Sən dağ kimi vüqarlısan, Zaqatala!
Meyvəlisən, nübarlısan, Zaqatala!

Vətən bizim qürurumuz, vüqarımız, döyünən ürəyimizdir. Vətən sevgisi də, ana sevgisi kimi hər bir insanın ürəyindədir. Uca Allahın sevgisi, məhəbbəti, şəfqəti və nəzərləri kimi. Nəbi Mülk "VƏTƏN SEVGİSİ" şeirində qeyd edir ki: Azərbaycan! Ana yurdum,
Mənim doğma diyarım!
Xoşbəxtəm ki, mən sənin
Qoynunda doğulmuşam.
Azərbaycan, güllü bağım,
Mənim fəsli baharım.
Bir müsəlləh əsgər kimi,
Keşiyində durmuşam!

Nəbi Mülk nə yazıbsa hamısını qəlbinin gözü ilə görüb, istedadının gücü ilə yazıb. Mən onun şeirlərini zərif, incə duyğular poeziyası adlandırıram. Onun sözlərinə bəstəkarlarımız bir çox ürəklər oxşayan mahnılar bəstələyiblər.O, təbiətə, dağa, daşa, gülə, torpağa vurğun bir şairdir. Onun poeziyasında hər dağın, hər palıdın, çinarın, cökənin öz görkəmi, öz gözəlliyi vardır.

XIX əsrdə görkəmli sərkərdə Şeyx Şamilin və onun qoşunlarının keçdiyi cığırında hələ də ot, ələf bitməyib. Şairin obrazlı qələmi ilə "Şamil dağı"-na nəzər yetirək:

Boz dağlar, bəyaz qardan,
Çalmanı bağlayıbdır.
Sanki sərkərdə Şamil,
Dağlarda dayanıbdır.
Hər gün nura boyanıb,
Dağdan boylanır Şamil!
Hər bir Vətən oğlunun,
Nəbzində vurur Şamil!

Şair "Yaşayacaqsan" şeirini halal zəhməti, fədakarlığı, qayğıkeşliyi ilə ad-san qazanan, doğma Suvagil kəndinin cəsur övladı, Sosialist Əməyi Qəhrəmanı Mina Nəzirovaya ithaf edilmişdir. Şeirə mahnı-video çarx hazırlanaraq YouTube- də yerləşdirilmişdir:




Elimizin igid, qəhrəman qızı,
Yurdumuzun sönməyən dan ulduzu,
Misli görünməyən şücaətinlə,
Göylərə qaldırdın el-obamızı.
El üçün alışdın, el üçün yandın,
Eldən ilham aldın, eldən güc aldın,
Elin xoşbəxtliyi, şadlığı üçün,
Neçə gecələr sən yuxusuz qaldın!

Azərbaycan Respublikasının Milli Qəhrəmanı İbad Hüseynova ithaf olunmuş "VƏTƏN MƏHƏBBƏTİ" şeirində qəhrəmanın ürəyində, əməlində, diləyində Vətən məhəbbətinin olduğunu aşağıda ki kimi qeyd edir

İbad, sənin ürəyində,
Vardır Vətən məhəbbəti!
Əməlində, diləyində
Vardır Vətən məhəbbəti!

Eyni zamanda İbad Hüseynovun Qarabağ savaşında göstərdiyi igidliklə qəhrəmanlıq səlnaməsini və gələcək nəsillər üçün tarix yazdığını qeyd etmişdir:

Göstərdiyin igidliklər,
Xalqın yaddaşında qaldı,
Qəhrəmanlıq səlnaməsi,
Şanlı tarixə yazıldı!
Qalib xalqın igid oğlu,
Ürəklərdə yaşayırsan!
Milli Qəhraman adını,
Nəsillərə daşıyırsan!

Deyirlər ki, hər bir insan doğulduğu, böyüdüyü yerə bənzər. Nəbi müəllim də cəsarəti, mərdliyi, xeyirxahlığı, ürəyinin genişliyi ilə bu yerlərə bənzəyir. Şeirlərindən birinə nəzər yetirək:

Güneyi baharlı, quzeyi qarlı,
Yoxuşu, yamacı axar-baxarlı,
Dağları dayanıb qartal vüqarlı,
Suvagil, kəndim mənim!
İgidləri at oynadar yorulmaz,
Ayna bulaqları heç vaxt bulanmaz,
Bizsiz orda bilin ocaq qalanmaz,
Öz qoynuna səslər bizi
Suvagil kəndim mənim!
Anatək bəslər bizi
Suvagil kəndim mənim!

"Çökəyim" şeiri şairin hazırda yaşadığı el-obanın zəhmətkeş insanlarına, vətənpərvər övladlarına, Şeyx Şamil cürətli igidlərinə, Nigar, Həcər qeyrətli qızlarına həsr olunmuş, ona mahnı bəstələnərək YouTube-də yerləşdirilmişdir:

Zəhmətkeş, güləruz insanların var,
Münbit, bərəkətli torpaqların var,
Vətənçün can verən övladların var,
Hüsnünə vurğunam necə sevməyim?
Sən necə gözəlsən mənim Çökəyim
İgidlərin Şeyx Şamil cürətli,
Gözəllərin Nigar, Həcər qeyrətli,
Süfrən bol, bəhrəli, halal nemətli,
Şəninə xoş sözlər necə deməyim?
Sən necə gözəlsən mənim Çökəyim!

Nəbi müəllimin dostluğa həsr olunan,, Dostuma, Əziz dost, və s şeirləri. səmimiliyi, sadəliyi, fikir aydınlığı ilə seçilir.

İstedadlı şair enişli-yoxuşlu yollarında qazandığı uğurlara görə dostlarına minnətdarlığını bildirir, dost yolunda hər bir sınağa, imtahana hazır olduğunu bildirir. Nəbi müəllimin, Həşim müəllim, şerinə nəzər yetirək.

Hər kitabın bir tarixi xəzinə,
Zərrə..zərrə düşdün onun izinə,
Dik baxırsan həqiqətin gözünə,
Yaşa səni,yaşa Həşim müəllim!

Quranı Kərimdə yazılıb ki, Məhşərdə ,,Kovsərn,, bulağının ətrafına yığışanlarin arasında olanlardan birinciləri ( s.a s) peyğəmbərlərdirsə, ikinciləri də şairlərdir.

Bu da Allahın biz şairlərə olan lütfü, mərhəməti və sədaqəti deyilmi?

İnsan qəlbinin mühəndisi olan şairlər də bəzi... bəzi insanlardan fərqlənirlər. Gözəl insan, gözəl şair Nəbi müəllim kimi.

Soyuq dekabr ayi idi. Onda mən təzəlikcə AYB ..nə qəbul olunmuşdum. Təqdimati rayon mədəniyyət evində keçirilməli idik. Rayonda yaşayan bütün şair və yazıçılar mədəniyyət evinə yığışmışdılar. Hamı soyuqdan titrəyirdi. Mənim də ayaqlarım donmuşdu. Allah üzümə baxdı. Tədbirə bir neçə dəqiqə qalmış Nəbi müəllim gəlib çatdı. Gördü ki,hami soyuqdan titrəyirdi.

O saat , "Süfrə" restoranina zəng elədi. Biz şairlər üçün ayrıca bir otaq istədi. Çay stolu sifariş elədi. O gündən sonra bütün tədbirlərlərimiz, Süfrə,, restoranında keçirilir.Bu gözəl insan Nəbi müəllimin fədakarlığı ilə.

Gözəl insan, gözəl şair, oxucularla 2-ci görüşün - təzə görüşün mübarəkdir!



***Həvva ADƏMSOY VASALOVA***
***şair-publisist.***
***Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü.***